**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA EMAL SƏNAYESİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

İxtisas: 5312.01 – "Sahə iqtisadiyyatı"

Elm sahəsi: İqtisad elmləri

**İddiaçı: Rüxsarə İlqar qızı Seyfullalı**

fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Texniki Universitetinin "İqtisadiyyat və statistika" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Mübariz Malik oğlu Məmmədli** |
| Rəsmi opponentlər: | iqtisad elmləri doktoru, professor<br>**Fərhad Pənah oğlu Rəhmanov** |
| | iqtisad elmləri doktoru, professor<br>**Vilayət İbrahim oğlu İsmayılov** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Allahyar Niyaz oğlu Muradov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

Dissertasiya şurasının
sədri: ____________ iqtisad elmləri doktoru, professor
**Yaşar Atakişi oğlu Kəlbiyev**

Dissertasiya şurasının
elmi katibi: ____________ iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Suqra İnqilab qızı Hümbətova**

Elmi seminarın sədri: ____________ iqtisad elmləri doktoru, dosent
**Ramil Zahid oğlu Hüseyn**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ✱ Azərbaycan Dövlət İqtisad Universiteti publik hüquqi şəxs ✱ Ministry of Science and Education Republic of Azerbaijan ✱ UNEC ✱ Azerbaijan State University of Economics
ÜMUMİ SÖBƏ

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Azərbaycanda həyata keçirilən iqtisadi siyasət və çoxsaylı dövlət proqramları (yoxsulluğun azaldılması, regionların sosial-iqtisadi inkişafı, milli iqtisadiyyatın və onun prioritet sahələrinin inkişafı üzrə strateji yol xəritələri və b.) nəticəsində ölkəmizdə milli sahibkarlar ordusu yaranmış, makroiqtisadi sabitlik təmin edilmiş və maliyyə dayanıqlığı möhkəmlənmiş, dünya iqtisadiyyatına inteqrasiya prosesi davam etmiş, əhalinin rifahı yüksəlmişdir. Müstəqil Azərbaycanın bu uğurlarının dünya iqtisadiyyatında baş verən dərin böhranlar fonunda əldə edilməsi isə xüsusilə diqqəti cəlb edir.

Eyni zamanda, milli iqtisadiyyatın strukturunun şaxələnməsi, neft sektorundan asılılığın azaldılması, yüksək əlavə dəyər yaradan müasir texnologiyalı sahələrin inkişafı kimi vəzifələr hələ də həllini gözləməkdədir.

Emal sənayesinin iqtisadiyyatın əlavə dəyəri yaradan əsas sahələrindən biri olaraq elm, təhsil, İKT və digər sektorlar üçün kəmiyyət və keyfiyyət baxımından daha böyük tələbatın yaradıcısı və iqtisadi inkişaf üçün daha geniş sinergiya potensialına malik olmasına rəğmən, bu sektorun milli iqtisadiyyatın strukturunda payının son 30 il ərzində çox kiçik qalması ölkəmizin emal sektorunu dəstəkləyən tənzimləyici mexanizmlərin təkmilləşdirilməsinin nə qədər vacib və zəruri olduğunu göstərir.

Ölkədə güclü emal sektorunun mövcudluğu müvafiq elmi potensialın, yüksək ixtisaslı insan resurslarının və texnologiyaların, inkişaf etmiş tənzimləyici institutların və infrastrukturun, səmərəli fəaliyyət göstərən əmək, əmtəə və kapital bazarlarının mövcudluğunun əlaməti kimi də qəbul oluna bilər. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də müəyyən edilmiş beş prioritetin məzmununda emal sənayesi əsas yerlərdən birini tutur.

Eyni zamanda, Azərbaycan Respubikası Prezidentinin 1 fevral 2024-cü il tarixli 2462 nömrəli Fərmanı ilə investisiya təşviqi sənədinin verilməsi üçün 13 strateji investisiya istiqaməti müəyyən

edilmişdir ki, bunlardan 10-u (yerli xammal əsasında istehsal, yaşıl enerji istehsalı, tullantıların təkrar emalı, özəl sənaye məhəllələrinin yaradılması, özəlləşdirilmiş qeyri-neft sənayesi müəssisələrinin istehsalı, idxalın əvəzlənməsi və qeyri-neft sektorunun ixrac potensialının artırılmasının təşviqi, dəmir yolunun hərəkət tərkibinin ehtiyat hissələrinin istehsalı, hərbi təyinatlı məhsulların istehsalı, aliminium məhsullarının istehsalı, dövlət-özəl tərəfdaşlığı layihələri) birbaşa emal sənayesi ilə bağlı olan sahələrdir.

Dövlətin cəmiyyətdə və onun inkişafında rolu barədə suallar iqtisad elminin formalaşmağa başladığı dövrlərdən indiyədək aktuallığını saxlayır. Erkən və yetkin merkantilistlərin, fiziokratların, klassik və neoklassik məktəbin nümayəndələrinin, J.M.Keyns və ardıcıllarının, neoliberalizmin və institusional məktəbin nümayəndələrinin əsərlərində dövlətin iqtisadi proseslərə müdaxiləsinə və tənzimləyici institut olaraq səmərəliliyinə dair əhəmiyyətli dərəcədə fərqlənən, bəzi hallarda isə biri-birini inkar edən nəzəri baxışlar formalaşmışdır. Son 50-60 il ərzində F.Hayek, R.Solou, U.Rostou, U.A.Lyuis, J.Stiqlitz, K.Polani, D.Rodrik, D.Acemoglu, M.Olson, G.J.Stigler, R.Barro, R.Levine, R.Falk, A.Krueger, J-J.Laffont, D.Nyuberi, D.Parker, D.Kauffman, R.Hausmann, M.Todaro, L.H.Summers, M.Porter, R.E.Lukas, P.Romer, D.Nort, M.Henrekson, E.Reinert və başqaları tərəfindən aparılan tədqiqatlarda qeyd edilən sualların cavabları üçün kifayət qədər sanballı və əsaslandırılmış elmi arqumentlər tapmaq olar. Bu problem beynəlxalq təşkilatların araşdırmalarında da mühüm yer tutur. Emal sektorunun inkişafına yönələn dövlət siyasətinin bəzi ölkələrdə möhtəşəm uğura, digərlərində isə uğursuzluğa gətirməsinə dair çoxsaylı nümunələri görmək mümkündür.

Azərbaycanda müxtəlif tənzimləmə tədbirlərinin makroiqtisadi proseslərə və qeyri-neft sektorunun inkişafına təsiri Y.Həsənli, Ə.Ələkbərov, R.Həsənov, N.İmanov, M.Əhmədov, Y.Kəlbiyev, M.Məmmədli, F.Əhmədov, F.Həsənov, C.Abbasov, X.Alıyev, İ.Seyfullayev və başqa iqtisadçıların tədqiqatlarında araşdırılmış, lakin tənzimləmə alətlərinin ölkənin emal sektoruna necə təsir etməsi məsələsi sistemli şəkildə tədqiq edilməmişdir.

Müasir dövrdə iqtisadi tənzimləmə ilə bağlı sualların cavablarını

mürəkkəbləşdirən iki amil xüsusilə qeyd edilməlidir:

- iqtisadiyyatın bazar və dövlət tənzimlənməsinin bir-birini tamamlaması və təkmilləşdirilməsi üçün yekdil nəzəriyyənin hələ də formalaşmaması;
- müasir qloballaşma və rəqəmsallaşma prosesləri nəticəsində iqtisadiyyatın dövlət tənzimlənməsi qarşısında yeni tələblərin meydana çıxması.

Bu baxımdan, iqtisadi strukturu, institutları, inkişaf səviyyəsi, coğrafi və geosiyasi mövqeyi ilə başqa ölkələrdən ciddi şəkildə fərqlənən Azərbaycanda emal sənayesinin inkişaf etdirilməsi üçün tənzimləmə mexanizminin keyfiyyətinin, nəticəliliyinin və səmərəliliyinin artırılması həm nəzəri, həm də praktiki baxımdan aktuallığı ilə seçilir.

**Tədqiqatın obyekti** kimi Azərbaycanda emal sənayesinin dövlət tənzimlənməsi mexanizmi seçilmişdir. Emal sənayesinin dövlət tənzimlənməsi prosesində dövlət və özəl sektor arasında yaranan münasibətlər, eləcə də həmin münasibətləri öyrənən nəzəri, metodoloji və empirik əsaslar **tədqiqatın predmeti** kimi qəbul edilmişdir.

**Tədqiqatın məqsədi** Azərbaycanda emal sektorunun dövlət tənzimlənməsi mexanizminin tədqiqi əsasında onun təkmilləşdirilməsi istiqamətlərini müəyyən etməkdən ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı **vəzifələr** qarşıya qoyulmuşdur:

- müasir dövrdə emal sektorunun tənzimlənməsində dövlət institutunun iştirakının zəruriliyinin əsaslandırılması;
- iqtisadiyyatın dövlət tənzimlənməsinin keyfiyyətinin və nəticəliliyinin qiymətləndirilməsinə yanaşmaların ümumiləşdirilməsi;
- rəqəmsal transformasiya mühitində iqtisadiyyatın dövlət tənzimlənməsinin yeni meyillərinin müəyyənləşdirilməsi;
- emal sektorunda iqtisadi artım amillərindən istifadənin qiymətləndirilməsi;
- tənzimləmənin "dövlət xərcləri" alətinin emal sektorunun inkişafına təsirinin təhlili;

- ölkənin maliyyə və emal sektorunun inkişafı arasında əlaqələrin tədqiqi;

- beynəlxalq təcrübədə emal sektorunun inkişafını təmin etmiş uğurlu tənzimləmə təcrübələrinin ümumiləşdirilməsi;

- dövlətin tənzimləyici institut kimi perspektivlərinin müəyyən edilməsi;

- Azərbaycanda emal sektorunun inkişafı üçün dövlət siyasətinin təkmilləşdirilməsi üzrə əsaslandırılmış təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqat metodları**. Tədqiqatın aparılmasında tarixi və məntiqi ümumiləşdirmə, təhlil yanaşmalarından istifadə etməklə kəmiyyət metodlarından geniş istifadə edilmişdir. Dövlətin iqtisadi tənzimləmə alətlərinin tətbiqi və emal sektorunun göstəricilərində baş verən dəyişikliklər arasında korrelyasiya və reqressiya əlaqələrinin müəyyən edilməsi, eləcə də bu əlaqələrin səbəb-nəticə xüsusiyyətlərinin araşdırılmasında ən kiçik kvadratlar metodu, Johansen kointeqrasiya testi, Toda-Yamamoto testi istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

1. Müasir tənzimləmə nəzəriyyələrində dövlətin iqtisadi proeselərə müəyyən hədlər daxilində müdaxiləsi zəruri hesab olunur, tənzimləmənin keyfiyyəti, nəticəliliyi və səmərəliliyi kimi suallar isə ən aktual müzakirə predmeti olaraq qalır.

2. İqtisadiyyatın dövlət tənzimlənməsinin qiymətləndirilməsinə müasir yanaşmalar ümumiləşdirilmişdir.

3. Emal sektorunun dövlət tənzimlənməsində rəqəmsallaşmanın yaratdığı imkanlar müəyyən edilmişdir.

4. Azərbaycanın emal sənayesinin sahibkarlar üçün investisiya cəlbedicliyi arzuedilən səviyyəyə çatmamışdır.

5. Dövlətin investisiya və təhsil xərclərinin emal sektorunda məhsuldarlığın artımına təsiri arzuedilən səviyyəyə çatmamışdır.

6. Azərbaycanın maliyyə sektorunun inkişafı ilə emal sektorunda bir işçiyə düşən ÜDM göstəricisi arasında uzun və qısa müddətli səbəbiyyət əlaqələri aşkarlanmamışdır.

7. Cənubi Koreya və Sinqapurun uğurlu tənzimləmə təcrübəsindən Azərbaycanda istifadə edilməsi istiqamətində təkliflər irəli sürülmüşdür.

8. Dünya iqtisadiyyatının artan qeyri-müəyyənliyi şəraitində rəqəmsal texnologiyalardan istifadə etməklə dövlət, özəl sektor və cəmiyyət arasında əməkdaşlığı və qarşılıqlı inamı ən yüksək səviyyəyə çatdıra biləcək institutların inkişaf etdirilməsi tənzimləmə tədbirlərinin nəticəliliyinin və səmərəliliyinin təmin edilməsi üçün əsas prioritet kimi müəyyən edilmişdir.

9. Tənzimləmə tədbirlərinin qiymətləndirilməsi üçün nəticəlilik göstəriciləri təklif edilmiş, nəticələrin monitorinqinin aparılması üçün həmin göstəricilər üzrə sistemli informasiya bazasının yaradılması, dəstəkləyici tədbirlərin bu göstəricilərlə və zaman hüdudları ilə əlaqələndirilməsi, qeyd edilən məsələlərin həllində rəqəmsal texnologiyaların tətbiqi təklif edilmişdir.

**Tədqiqatın elmi yeniliyinə** aşağıdakıları aid etmək olar:

1. Azərbaycanda emal sənayesinin inkişafının zəruri şərti dövlətin iqtisadi proseslərə güclü müdaxiləsi, kafi şərti isə bu müdaxilədə informasiya asimmetriyasının mümkün qədər azaldılması, şəffaflığın və hesabatlılığın təmin edilməsidir.

2. Azərbaycanda dövlətin tənzimləmə tədbirləri iqtisadiyyatın ticarət, təmir və tikinti, rabitə, nəqliyyat və digər sahələrinin inkişafı üçün daha yaxşı təsirlər yaradır. Emal sektoru isə bu dəstəkdən lazımi səviyyədə faydalana bilmir.

3. Azərbaycanda maliyyə inkişafı ilə ticari məhsulları istehsal edən emal sektorunun inkişafı arasında səbəbiyyət əlaqələri müşahidə olunmur.

4. Tənzimləmə qərarlarının qəbulu, icrası və nəticələrinin qiymətləndirilməsi prosesində rəqəmsal texnologiyalardan istifadə etməklə şəffaflığın təmin edilməsi və müvafiq rəqəmsal informasiya bazasının yaradılması, tənzimləmənin nəticəliliyi və səmərəliliyinin qiymətləndirilməsi üçün göstəricilər sistemi təklif olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** İqtisadiyyatın dövlət tənzimlənməsinə müasir dövrün qloballaşma və rəqəmsallaşma prosesləri prizmasından yanaşılması, tənzimləmədə "dövlətin uğursuzluğu" hallarının azaldılması üzrə nəzəri

müddəaların ümumiləşdirilməsi, dövlət institutunun tənzimləmə prosesində qarşılaşdığı müasir problemlərin tədqiqi tənzimləmə nəzəriyyəsi üçün yeni ideyalar təqdim edə bilər.

Tədqiqatın nəticələri həm Azərbaycanda, eləcə də iqtisadi strukturu və institutları ilə ölkəmizə bənzəyən başqa ölkələrin iqtisadi tənzimləmə mexanizminin keyfiyyətinin artırılmasında, informasiya asimmetriyası və koordinasiya uğursuzluqlarının aradan qaldırılmasında, tənzimləmə qərarlarının qəbulunda, icrasında və nəticələrin monitorinqində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas nəticələri Azərbaycanda və xarici ölkədə keçirilmiş 5 beynəlxalq konfransda məruzə edilmiş, dissertasiyanın məzmunu üzrə 6 məqalə yerli və xarici elmi jurnallarda nəşr edilmişdir.

Dissertasiya Azərbaycan Texniki Universitetinin "İqtisadiyyat və Statistika" kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın həcmi 229627 işarədən (o cümlədən giriş - 12646, 1-ci fəsil - 53616, 2-ci fəsil - 64251, 3-cü fəsil - 60687, nəticə - 10149, istifadə edilmiş ədəbiyyat siyahısı - 28278) ibarətdir.

## DİSSERTASİYA İŞİNİN STRUKTURU

**Giriş**
**I Fəsil. EMAL SƏNAYESİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI**
1.1. Dövlət – emal sənayesinin tənzimləyici institutu kimi
1.2. İqtisadiyyatın dövlət tənzimlənməsinin qiymətləndirilməsinə müasir yanaşmalar
1.3. Rəqəmsallaşma şəraitində emal sənayesinin dövlət tənzimlənməsinin konseptual əsasları
**II Fəsil. AZƏRBAYCANIN EMAL SƏNAYESİNDƏ DÖVLƏT TƏNZİMLƏNMƏSİ ALƏTLƏRİNDƏN İSTİFADƏNİN QİYMƏTLƏNDİRİLMƏSİ**
2.1. Emal sənayesində iqtisadi artım amillərinin müasir vəziyyəti
2.2. Dövlət xərclərinin emal sənayesinin inkişafına təsiri
2.3. Maliyyə sektorunun inkişafının emal sənayesinə təsirinin qiymətləndirilməsi
**III Fəsil. BEYNƏLXALQ TƏCRÜBƏ VƏ AZƏRBAYCANDA EMAL SƏNAYESİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN PERSPEKTİVLƏRİ**
3.1. Emal sənayesini inkişaf etdirən uğurlu tənzimləmə nümunələri – Cənubi Koreya və Sinqapur
3.2. İqtisadiyyatın dövlət tənzimlənməsinin inkişaf prioritetləri
3.3. Azərbaycanda emal sənayesinin inkişafı üzrə dövlət siyasətinin təkmilləşdirilməsi istiqamətləri
**Nəticə**
**İstifadə edilmiş ədəbiyyat siyahısı**

# TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri müəyyən edilmiş, tədqiqat prosesində istifadə edilmiş metodlar, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, eləcə də aprobasiyası barədə məlumatlar verilmişdir.

Dissertasiyanın **"Emal sənayesinin dövlət tənzimlənməsinin nəzəri-metodoloji əsasları"** adlı birinci fəslində dövlətin tənzimləyici institut kimi xüsusiyyətləri, elmi ədəbiyyatda iqtisadiyyatın dövlət tənzimlənməsinin qiymətləndirilməsinə müasir yanaşmalara dair nəzəri müddəalar, rəqəmsallaşma proseslərinin emal sektorunun dövlət tənzimlənməsi üçün yaratdığı yeni reallıqlar tədqiq edilmişdir.

Müasir tənzimləmə nəzəriyyələrində dövlətin iqtisadi proeseslərə müəyyən hədlər daxilində müdaxiləsi zəruri hesab olunur, tənzimləmənin keyfiyyəti, nəticəliliyi və səmərəliliyi kimi suallar isə ən aktual müzakirə predmeti olaraq qalır.

Dövlətin iqtisadi proseslərə müdaxiləsi bazar mexanizminin inhisarın, natamam bazarların, informasiya asimmetriyasının, mənfi xarici təsirlərin mövcudluğu şəraitində yaxşı işləməməsi və gəlirlərin bölgüsündə səmərəli olmaması ilə əlaqələndirilir.

Bir çox tədqiqatlar dövlət dəstəyinin müəssisələrdə innovasiya fəaliyyətinə və məhsuldarlığın artımına müsbət təsir etdiyini göstərir[1]. Bəzi tədqiqatlarda iddia olunur ki, dövlət dəstəyi hətta müəssisələrin davranışında keyfiyyət dəyişikliyinə, innovativ inkişaf modelinə keçidə də gətirmək gücündədir[2]. İqtisadi ədəbiyyatda dövlətin iqtisadi proseslərə müdaxiləsi nəticəsində yaranan mənfi yüklü meyillər də qeyd edilir: rəqabət mühitinin zəifləməsi; dövlət dəstəyindən sui-istifadə halları üçün şəraitin yaranması; dövlət

---

[1] Garcia, A. The relevance of marketing in the success of innovations // JRC Working Papers on Corporate R&D and Innovation, No. 2011-09.

[2] Falk, R. Measuring the effects of public support schemes on firms innovation activities // Research Policy, Vol.36, No.5, - 2007. – p. 665-679. https://doi.org/10.1016/j.respol.2007.01.005

sektorunun həddən artıq böyüməsi; xüsusi vəsaitlərin dövlət vəsaitləri ilə dövriyyədən sıxışdırılması və s.[3].

Y.Stiqlitz inkişaf etməkdə olan ölkələrdə bazar uğursuzluqlarının daha əhəmiyyətli olacağını və bu səbəbdən də həmin ökələrdə dövlət tənzimləməsinə meyilin güclənəcəyini bildirirdi[4].

Ümumiyyətlə, tənzimləmə prosesi və onun nəticələri rəsmi və qeyri-rəsmi qaydalarda əks olunduğu üçün, xüsusi institusional məzmuna malik olur. İnstitutlar "oyun qaydaları"nı müəyyən edərək, iqtisadi inkişafa təsir edir[5]. Bəzi tədqiqatlar təsdiqləyir ki, yaxşı tənzimləmə daha yüksək iqtisadi artımla nəticələnə bilər[6].

Tənzimləyici institutların effektivliyi bazarların yaxşı fəaliyyət göstərməsində mühüm rol oynayır və tənzimləmənin nəticələrində təzahür olunur. Parker hesabatlılığı, şəffaflığı və uyğunluğu yaxşı işləyən tənzimləmə sisteminin əsas xüsusiyyətlərinə aid etmişdir[7].

Bir sıra tədqiqatlarda reqressiyalardan istifadə etməklə, daha yaxşı tənzimləmənin uzun müddət ərzində adambaşına milli gəlirə güclü təsir etməsi müəyyən olunmuşdur[8]. Keyfiyyətli tənzimləmə və iqtisadi nəticə arasındakı səbəb zənciri də araşdırmaların əsas obyektlərindən olmuşdur. Bəzi tədqiqatlar idarəetmənin və institutların keyfiyyətinin investisiyaların stimullaşdırılmasında vacib

---

[3] David, P. Is public R&D a compliment or a substitute for private R&D? A review of econometric evidence / P.David, B.Hall, A.Toole // Research Policy, Vol.29, No.4, - 2000. – p. 497-529. https://doi.org/10.1016/S0048-7333(99)00087-6

[4] Stiglitz, J. Private Uses of Public Interests: Incentives and Institutions // Journal of Economic Perspectives, - 1998. 12(2): 3-22.

[5] Rodrik, D. Institutions Rule: The Primacy of Institutions over Geography and Integration in Economic Development / D.Rodrik, A.Subramanian, F.Trebbi // Journal of Economic Growth, - 2004. 9(2): 131-165.

[6] World Development Report, 2002: Building Institutions for Markets / Washington DC: World Bank. – p. 152.

[7] Parker, D. Regulation of privatised public utilities in the UK: performance and governance // - International Journal of Public Sector Management, - 1999. 12 (3): p .224.

[8] Barro, R.J. Determinants of Economic Growth: A cross-country empirical study // Development Discussion Paper, Harvard Institute for International Development – 1997. No. 579.

olduğunu üzə çıxarır, kapitalın yaradılması üçün mühitin yaxşılaşdırılması ilə iqtisadi göstəricilərin yüksəldilməsini yaxşı tənzimləmənin əlaməti kimi təqdim edir[9].

Dani Rodrik təklif edir ki, dövlətin sənaye siyasətinin təhlili təkcə onun əvvəlcədən məlum olmayan nəticələri üzərində deyil, bu siyasi prosesin düzgün qurulması istiqamətində də aparılmalıdır[10].

Azərbaycanda emal sektorunun inkişafına yönələn tənzimləmə tədbirlərinin nəticəliliyinin qiymətləndirilməsinin tənzimləyici alətlərinin tətbiqi nəticəsində emal sektorunun makroiqtisadi göstəricilərində baş verən dəyişikliklərin təhlili istiqamətində aparılması məqsədəmüvafiq hesab edilmişdir.

Süni intellekt və robototexnika, virtual icra mühiti, uyğunlaşan istehsal, nanomateriallar, geomühəndislik, blokçeyn, bio, neyro və kosmik texnologiyalar 4-cü sənaye inqilabının bəşər tarixinə gətirdiyi bənzərsiz hadisələrdir[11]. Dövlət institutunun 4-cü sənaye inqilabının gətirdiyi yeni proseslərə uyğunlaşması isə zərurətə çevrilmişdir.

Rəqəmsallaşma və süni intellektin tətbiqinin tənzimləmənin səmərəliliyinin və nəticəliliyinin artırılması üçün aşağıdakı imkanları yaratdığını qeyd edə bilərik:

- Tənzimləmə qərarlarının qəbulunda informasiya asimmetriyasının azaldılması;
- Sahibkarların dövlət dəstəyinə ehtiyaclarının daha obyektiv məlumatlar əsasında müəyyən edilməsi;
- Tənzimlənən subyektlərin dövlət dəstəyindən necə istifadə etməsinin monitorinqinin onlayn rejimdə aparılması;
- Dövlət dəstəyi alan subyektlərin fəaliyyət göstəricilərinin dəyişmə dinamikası barədə, eləcə də onların yerli istehsalçılarla

---

[9] Global Economic Prospects and the Developing Countries / - Washington DC: World Bank, - 2003.

[10] Rodrik, D. Growth strategies // In: P.Aghion., S.N.Durlauf (eds.) – Handbook of economic growth, - 2005. Vol. Part A.Elsevier, - p. 967-1014. https://doi.org/10.1016/S1574-0684(05)01014-2

[11] Schwab, K. Davos Manifesto 2020: The Universal Purpose of a Company in the Fourth Industrial Revolution / K.Schwab – World Economic Forum. Available online: http://www.worldacademy.org/files/global_leadership/papers/Davos_Manifesto_2020.pdf

dövriyyələri və klasterləşmə fəaliyyəti üzrə məlumatların onlayn rejimdə əldə edilməsi;

- Tənzimləmənin məqsədlər baxımından qiymətləndirilməsi üçün rəqəmsal informasiya bazası vasitəsilə tənzimləmə tədbirlərinin səmərəliliyi və nəticəliliyi barədə məlumatların onlayn rejimdə əldə edilməsi;
- Tənzimləmə prosesində şəffaflığın təmin edilməsi;
- Tənzimləmə alətlərinin səmərəliliyinin qiymətləndirilməsi.

Dissertasiyanın **"Azərbaycanın emal sektorunda dövlət tənzimlənməsi alətlərindən istifadənin qiymətləndirilməsi"** adlanan ikinci fəslində emal sektorunda iqtisadi artımın müasir amilləri təhlil edilmiş, dövlətin tənzimləmə alətlərindən olan dövlət xərclərinin emal sektorunun iqtisadi göstəricilərinə təsiri və ölkəmizdə maliyyə inkişafının emal sektoruna təsiri qiymətləndirilmişdir.

Emal sənayesinin ölkə ÜDM-də payının son illərdə 3,6-7,1% arasında qalması və qeyri-ticari sahələrin ÜDM-də payının artım meyilləri fonunda emal sektorunun artımının nisbətən az olması bu sektorun çətin dövrləri yaşadığını əks etdirir.




**Qrafik 1. Azərbaycanda ÜDM-in sahəvi strukturu (*2005-ci ilin qiymətləri ilə, faizlə)*[12]**

[12] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir. https://www.stat.gov.az/

Ölkəmizdə əhalinin məşğulluğunun sahələr üzrə bölgüsünün ÜDM-in sahəvi strukturu fonunda təhlili göstərir ki, ölkəmizin emal sektoru iş yerlərinin yaradılması və əmək məhsuldarlığının yüksəldilməsi məsələlərində aparıcı rol oynamır.

**Cədvəl 1.**

**2023-cü ildə Azərbaycanda ÜDM-in və məşğul əhalinin sahələr üzrə bölgüsü (%-lə)[13]**

| s/s | Göstəricilər | Mədənçıxarma sənayesi və karxanaların işlənməsi | Emal sənayesi | Kənd təsərrüfatı, ovçuluq və meşəçilik | Tikinti | Nəqliyyat, anbar təsərrüfatı və rabitə | Digərləri |
|---|---|---|---|---|---|---|---|
| 1. | ÜDM | 34,5 | 6,4 | 6,3 | 9,1 | 16,0 | 27.7 |
| 2. | Məşğul əhali | 0,8 | 5,7 | 35,8 | 7,8 | 5,3 | 44,6 |

Azərbaycanın qeyri-neft sektorunda fiziki kapitalın ümumi dəyəri 2005-2022-ci illər ərzində 5 dəfədən çox artmışdır. Emal sektorunda da artım müşahidə edilsə də, onun artım templəri nəqliyyat və rabitə, enerji istehsalı (elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı), tikinti və digər sektorların artım templərindən geri qalır. Bunun nəticəsidir ki, emal sektorunun fiziki kapitalının qeyri-neft sektorunun fiziki kapitalında payı 2005-ci ildə 15,6%-dən xeyli azalmış və 2022-ci ildə 10,3% olmuşdur.




**Qrafik 2. Qeyri-neft sektorunda fiziki kapitalın sahələr üzrə bölgüsü *(faizlə)*[14]**

---

[13] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir. https://www.stat.gov.az/

[14] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir. https://www.stat.gov.az/

Belə meyillərin mövcudluğu Azərbaycanda qeyri-ticari sahələrin investisiya cəlbediciliyinin emal sektoruna nisbətən daha güclü olduğunu, sahibkarların emal sektorunda fəaliyyət motivasiyasının və imkanlarının zəruri səviyyədə olmadığı barədə fikir söyləməyə əsas verə bilər.

Azərbaycanın emal sektorunda istehsal həcmi, kapitalın həcmi, innovasiya xərcləri və məşğul əhali göstəriciləri arasında korrelyasiya əlaqələrinin səviyyəsi göstərir ki, emal sektorunda istehsal həcminə məşğul əhalinin ($k=0.94$) və kapitalın ($k=0.62$) təsiri güclü olmuşdur. Lakin, innovasiya xərclərinin istehsal həcminə təsiri barədə bu fikri söyləmək mümkün deyil ($k=0.23$).

Qeyd edilən nəticələr aşağıdakı fikirləri irəli sürməyə əsas verir:

- əmək amili istehsal həcminə təsir dərəcəsinə görə digər göstəriciləri əhəmiyyətli şəkildə qabaqlayır – emal sektorunda əməktutumlu sahələrin üstünlük təşkil etdiyini deməyə əsas verir;
- kapitalın və əməyin ÜDM-ə təsiri innovasiya xərclərinin təsirindən daha çoxdur, bu isə emal sənayesində iqtisadi artımın ekstensiv xarakterinin hələ də üstün mövqedə qaldığını deməyə əsas verir;
- emal sənayesində innovasiya xərcləri ilə ÜDM, məşğul əhali və kapital göstəriciləri arasında çox zəif korrelyasiyanın mövcudluğu göstərir ki, innovasiya xərcləri ölkəmizdə hələ də iqtisadi artıma və onun amillərinə təsir edəcək səviyyəyə çatmamışdır.

Belə vəziyyətdən çıxış yolu kimi iqtisadi artımı təmin edən institutların – rəqabətin, bazarların, xüsusi mülkiyyətin qorunması və texnologiyaların yayılması mexanizmlərinin gücləndirilməsini təklif etmək olar.

Dövlət büdcəsindən təhsilə ayrılan xərclərin son 20 il ərzində təxminən 16 dəfə artması (nominal ifadədə) diqqətəlayiq bir haldır. Böhran ili olan 2015-ci ildən başlayaraq təhsil xərclərinin 1,6 milyard manatdan 2023-cü ildə təxminən 2,5 dəfə artaraq 4,1 milyard manata[15] çatması iqtisadi inkişaf üçün ümidləri xeyli artırır.

---

[15] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları [Elektron resurs] / www.stat.gov.az

Dövlətin elm xərclərinin artım dinamikası yüksək olsa da (2023-ci ildə 2005-ci ilə nisbətən 7 dəfəyə yaxın), onun büdcə xərclərində payı (2023-cü ildə 0,53%)[16] inkişaf etməkdə olan bir çox ölkələrlə müqayisədə çox azdır.

Dövlət xərclərinin emal sektoruna təsirini qiymətləndirmək üçün asılı dəyişəni emal sektorunda bir işçiyə real ÜDM *(P)*, müstəqil dəyişəni emal sektorunda əsas vəsaitlərin miqdarı (*K*), nəzarət göstəriciləri kimi isə dövlətin investisiya *(Sİ)* və təhsil xərcləri *(EE)* olan model qurulmuşdur.

$$P = F(K, S\dot{I}, EE)$$

Modelin qalıqları arasında avtokorrelyasiya və normal paylanma testlərinin nəticələri qənaətbəxş olmuşdur.

Modelin nəticələri aşağıdakı reqressiya tənliyini qurmağa imkan vermişdir:

$$\ln P = -2.7788 + 0.2497\ln K + 0.01333\ln S\dot{I} + 0.1753\ln EE + 0.4985\ln P(-1)$$

Reqressiya tənliyindəki əmsalların qiyməti aşağıdakı mülahizələri irəli sürməyə imkan verir:

- kapitalın 1% artması emal sektorunda adambaşına ÜDM-in 0.25% artmasına gətirir;
- dövlət investisiyalarının 1% artımı emal sektorunda adambaşına ÜDM-in 0.013% artmasına gətirir;
- dövlət büdcəsindən təhsilə ayrılan xərclərin 1% artması emal sektorunda adambaşına ÜDM-in 0.175% artmasına gətirir.

Bu nəticələrin səbəbi qismində aşağıdakı mülahizələri göstərmək olar:

- büdcənin investisiya xərcləri emal sektorunun iqtisadi inkişafına təkan vermə baxımından yetərli deyil;
- emal sektorunda fəaliyyət göstərən sahibkarların büdcə xərcləri vasitəsilə yaradılan imkanlardan istifadə etmək motivasiyaları, qabiliyyətləri və yaxud imkanları yetərli olmaya bilər. Sahibkarlar artan daxili tələbatla dəstəklənən ticarət, xidmət, təmir, tikinti, rabitə, nəqliyyat və digər sektorlarda fəaliyyət üçün daha çox motivasiyalı ola bilərlər;

[16] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları [Elektron resurs] / www.stat.gov.az

- dövlətin investisiya və təhsil xərcləri ilə digər dəstəkləyici alətlər (pul-kredit, gömrük, vergi, texniki və s.) arasında koordinasiya arzu edilən səviyyədə olmaya bilər;

- tənzimləmə qərarlarını qəbul edən dövlət orqanları ilə emal sektorunun sahibkarları arasında informasiya asimmetriyası ola bilər və s.

Ölkənin maliyyə sektorunun inkişafı səmərəli maliyyə bazarlarının mövcudluğu ilə şərtlənir. Azərbaycanda emal sektorunun maliyyə tələbatlarının ödənilməsində bank kreditlərinin qiymətli kağızlar və sığorta bazarlarına nisbətən daha qabarıq rol oynaması bu günümüzün reallığıdır. Buna görə də, tədqiqatda maliyyə sektorunu təmsil edən dəyişən qismində bank kreditləri qəbul edilmişdir.




**Qrafik 3. Azərbaycanda kredit qoyuluşlarının 2005-2023-cü illərdə sektoral bölgüsü (*faizlə*)**[17]

Emal sektoruna kredit qoyuluşlarının məbləğinin ev təsərrüfatlarına, ticarət və xidmət sektoruna yönəldilən kreditlərlə müqayisədə daha aşağı templə artması, eləcə də ümumi kredit həcmində 5-11% arasında tərəddüd edən payı aşağıdakı mülahizələri irəli sürməyə imkan verir:

[17] Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir. https://www.cbar.az/page-42/monetary-indicators#page-2

- emal sektoruna kreditlər daha yüksək riskli olduğu üçün həm banklar, həm də sahibkarlar bu məsələdə daha ehtiyatlı mövqe tuturlar;
- kapital tutumu böyük olan emal sektorunun kreditlərə tələbatı investisiya ilə deyil, əsasən dövriyyə vəsaitlərinin çatışmazlığı ilə bağlı yaranır;
- emal sektorunda fəaliyyət göstərən sahibkarların kredit resurslarına tələbatı azdır.

Emal sektorunda nominal ÜDM-in son illərdə kəskin artımı və həmin dövrdə bu sektora kredit qoyuluşlarının azalması bu iki göstərici arasında əlaqələrin təbiətinin kifayət qədər mürəkkəb olduğunu göstərir və təhlil üçün daha geniş imkanlara malik olan ekonometrik modellərdən istifadə edilməsini zəruri edir.

Tədqiqatda 2005-2022-ci illəri əhatə edən rüblük məlumatlardan Azərbaycanın emal sektorunda bir işçiyə ÜDM, kapitalın ÜDM-ə nisbəti, emal sektoruna verilən yerli kreditlərin ÜDM-ə nisbəti, idxalın ÜDM-ə nisbəti kimi göstəricilər arasında səbəbiyyət əlaqələri qiymətləndirilmişdir. Johansen Kointeqrasiya testinin nəticələri uzun müddətli dövrdə Azərbaycanın emal sektorunda məhsuldarlıq, kreditləşmə, fiziki kapitalın ÜDM-də payı və idxalın ÜDM-də payı arasında kointeqrasiya əlaqələrin mövcudluğuna dair hər hansı sübutu təqdim etmir. Belə əlaqələrin yoxluğu dövlətin tənzimləyici tədbirlərinin hələ də gözlənilən nəticələrə gətirmədiyini göstərir.

Qısamüddətli dövrdə dəyişənlər arasında fərdi səbəbiyyət əlaqələrinin tədqiqi və onların istiqamətini müəyyən etmək üçün isə Toda-Yamamoto testindən istifadə edilmişdir.

Modelin qalıqlarında avtokorrelyasiyanın yoxluğu və modelin sabitliyi testinin nəticəsinin müsbət olması modelin keyfiyyətini qənaətbəxş hesab etməyə imkan vermişdir.

Toda-Yamamoto testinin nəticələrinə görə, kreditlərin ÜDM-də payının artımı ilə Azərbaycanın emal sektorunda adambaşına real ÜDM arasında qarşılıqlı səbəbiyyət əlaqələri mövcud deyil. Emal sektorunda məhsuldarlıq, kapital və kreditlər arasında səbəb-nəticə əlaqəsinin yoxluğu kifayət qədər düşündürücü nəticədir. Kreditlərin məhsuldarlığın və kapitalın artmasına səbəb olmaması onu deməyə əsas verir ki, Azərbaycanda aparılan kredit siyasəti emal sektorunu kapitalın artımı vasitəsilə dəstəkləyə bilmir. Qarşımızdakı mənzərə

yerli emal məhsullarının rəqabət qabiliyyətindəki çatışmazlıqlara da dəlalət edir.

Maraqlı məqamlardan biri də odur ki, emal sektorunda kreditləşmənin artması idxalın ÜDM-də payının artımına səbəb olur. Qeyd edilən nəticəni belə izah etmək olar: yerli emal müəssisələri kreditlərin bir qismini xammal, komplektləşdirici hissələr, yarımfabrikatlar və digər vəsaitlərin idxalına yönəldir; emal sektorunda yaranan yeni iş yerləri daxili bazarda istehlak təyinatlı idxal məhsullarına tələbatı dəstəkləyir.

Emal sektorunda sahibkarların alternativ maliyyə mənbələrinin yaranması isə ölkədə fond bazarlarının inkişafını tələb edir. Fond bazarlarının inkişafı isə müvafiq institusional məsələlərin – hesabatlılığın, şəffaflığın və iqtisadi agentlər arasında qarşılıqlı inamın gücləndirilməsi, hüquq sisteminin təkmilləşdirilməsi kimi vəzifələri qarşıya qoyur. Eyni zamanda, iqtisadiyyatın dövlət tənzimlənməsinin keyfiyyətinin artırılması, onun ünvanlılığının və nəticəliliyinin təmin edilməsi, tənzimləmə tədbirlərinin emal sektorunda fəaliyyət göstərən sahibkarların motivasiyalarının və məhdudiyyətlərinin dərindən öyrənilməsi əsasında hazırlanması tövsiyə olunur.

Dissertasiyanın **“Beynəlxalq təcrübə və Azərbaycanda emal sənayesinin dövlət tənzimlənməsinin perspektivləri”** adlanan üçüncü fəslində Cənubi Koreya və Sinqapur kimi ölkələrdə emal sektorunun inkişafı prosesində dövlət tənzimlənməsinin xüsusiyyətləri tədqiq edilmiş, dövlətin institutunun tənzimləyici mexanizm olaraq səmərəliliyinin yüksəldilməsi məsələləri araşdırılmış və Azərbaycanda dövlətin sənaye siyasətinin təkmilləşdirilməsi istiqamətləri barədə müddəalar əsaslandırılmışdır.

Cənubi Koreya və Sinqapur ötən əsrin 50-60-cı illərindən başlayaraq ənənəvi iqtisadiyyatdan (aqrar sektor və yaxud təbii resurslara əsaslanan iqtisadiyyat) industrial cəmiyyətlərə (güclü emal sektoruna əsaslanan iqtisadiyyat) çevrilmişlər.

Hər iki ölkədə Rostounun[18] müəyyən etdiyi inkişaf mərhələlərini

---

[18] Rostow, W. The Stages of Economic Growth / W.Rostow. – Econ History Review, - 1959.

(ənənəvi cəmiyyət; özünü təmin edən artıma qalxma və ya ilkin şərtlər; sürətli artım; yetkinliyə doğru irəliləmə; yüksək kütləvi istehlak) müşahidə etmək olar. Hər iki ölkənin sürətli artım dövrlərində fiziki kapitalın ÜDM-də payının yüksək olduğunu, özəl sektora verilən yerli kreditlərin ÜDM-də payının isə son 60 ildə dəfələrlə artmasını və kreditlərin məbləğinin ölkənin ÜDM-dən çox olmasını müşahidə edə bilərik. Hər iki ölkədə həm idxalın, həm də ixracın ÜDM-də payı yüksək səviyyədə olmuşdur.

Cənubi Koreyanın iqtisadi inkişaf tarixini digər ölkələrdən fərqləndirən ən əsas məqamlara aşağıdakıları da aid edə bilərik[19]:

- düşünülmüş və çox iddialı torpaq islahatının aparılması;
- ibtidai və orta təhsilin əhəmiyyətli dərəcədə gücləndirilməsi.

İlk baxışdan təzadlı görünsə də, məhz kompleks xarakterli torpaq islahatı ənənəvi sektorda sənaye məhsullarına daxili tələbatın sürətlə artmasına təkan vermişdir: işçi qüvvəsinin sənaye sahələrinə axını aqrar sektorda izafi əməyin azalmasına və məhsuldarlığın artmasına imkan yaratmışdır. Peşə yönümlü orta təhsil isə yeni yaranan tələbatları ödəyəcək sənaye sahələri üçün ixtisaslı işçi qüvvəsinin yetişməsinə şərait yaradırdı. Beləliklə, ölkədə biri-birini dəstəkləyən sektorlar formalaşmağa başlamış və sinergiya effektinin heyrətamiz nəticələri özünü çox gözlətməmişdir.

Cənubi Koreyada dövlət iqtisadi proseslərə həm inzibati, həm də dolayı tənzimləyici alətlər vasitəsilə təsir etmişdir. Sahibkarlar üçün iqtisadi stimulların yaradılması və onların hökumətin tapşırıqlarının yerinə yetirilməsinə sövq edilməsi üçün müxtəlif vergi və gömrük güzəştləri tətbiq olunmuş, bu güzəştlərdən istifadə isə hökumətin müəyyən etdiyi hədəf göstəriciləri ilə əlaqələndirilmişdir. Eyni zamanda, ümumi inkişaf planlarının qəbulu, ayrı-ayrı şirkətlər üçün ixrac hədəflərinin təyin edilməsi kimi inzibatı üsullar da tətbiq edilmişdir.

1965-ci ildə dövlət müstəqilliyini qazandıqdan sonra Sinqapurun qarşısında dayanan ən əsas problem iqtisadiyyatın sənaye sahələri hesabına şaxələnməsi və ixracın artırılması ilə bağlı idi. Qeyd edilən

[19] Kong, T.Y. The Politics of Economic Reform in South Korea: A Fragile Miracle / T.Y.Kong. – London and New-York. Rouletdge, - 2000.

vəzifələrin həlli üçün Sinqapurun nə kifayət qədər ehtiyat kapitalı, nə ixtisaslaşmış işçi qüvvəsi, nə də texnologiyaları var idi. Sinqapurun dövlət siyasətinin mərkəzində transmilli şirkətlərlə əlaqələrdən istifadə etməklə dəyər zəncirinin daha yüksək pillələrinə keçidi təmin edəcək sahələrin inkişafı dayanırdı. Sinqapurun ixraca əsaslanan artım strategiyası, ucuz içi qüvvəsi, əlverişli vergi rejimi və keyfiyyətli infrastrukturu ölkənin xarici investisiyalar üçün cəlbediciliyini təmin edirdi. Sinqapur inkişafın ilkin şərtini – kapitalı əldə etmək üçün Cənubi Koreyadan fərqli strategiya seçmiş, transmilli şirkətlərin dəyər zəncirində mövqe qazanmağı və birbaşa xarici investisiyaların cəlb edilməsini daha əlverişli strategiya kimi qəbul etmişdir. Belə yanaşmanın seçilməsinə daxili bazarın kiçikliyi amili və industrial inkişafın xarici bazarlardan asılılığı da təsir göstərmişdir.

Cənubi Koreyanın və Sinqapurun təcrübəsi əsasında Azərbaycanda emal sektorunun tənzimlənməsində aşağıdakı istiqamətlərdə təkmilləşdirmələrin aparılmasını tövsiyə etmək olar:

- emal sektorunun investisiya cəlbediciliyinin artırılması üçün yerli istehsalçılara vergi, gömrük və kreditləşmə üzrə, eləcə də infrastruktur və logistika imkanları üzrə ciddi güzəştlərin təqdim edilməsi;
- dövlət - biznes - universitet mexanizminin hərəkətə gətirilməsi üçün informasiya asimmetiryası və koordinasiya uğursuzluğu hallarının aradan qaldırılması istiqamətində işlərin görülməsi;
- idxalı əvəz edən və ya yerli bazar üçün yeni məhsulları istehsal edən sahibkarların tam dəstəklənməsi;
- yerli istehsalçılar arasında rəqabətin dəstəklənməsi;
- yerli istehsalçılar arasında klasterləşmənin dəstəklənməsi;
- yeni texnologiyaların yaranmasının dəstəklənməsi;
- ibtidai, orta, peşə və ali təhsildə keyfiyyətin yüksəldilməsi;
- tənzimləmə qərarlarının qəbulunda, icrasında və monitorinqində şəffaflığın təmin edilməsi üçün rəqəmsal texnologiyalardan istifadə.

Dünya İqtisadi Forumunun 2020-ci il üzrə Qlobal Rəqabətqabiliyyətlilik Hesabatına görə, 2009-2020-ci illərdə şəffaflığın azalması, nəzarətin və digər məhdudlaşdırıcı amillərin

zəifləməsi fonunda tənzimləyici institutların eroziyası baş verməkdədir. Bu illərdə dövlət institutunun keyfiyyəti üçün çox böyük əhəmiyyət kəsb edən üç göstərici – məhkəmə sisteminin müstəqilliyi, hüquqi bazanın səmərəliliyi və dövlət müqavilələrinin şəffaflığı – üzrə reytinqlərin G20, xüsusilə də inkişaf etmiş böyük ölkələrdə azalma meyili müşahidə olunmuşdur[20].

Acemoğlu və Robinsonun fikrincə, dövlət "zəncirlənmiş Leviafan"a bənzədikdə iqtisadi inkişafı daha yaxşı təmin edə bilir.




**Şəkil 1. Acemoğlu və Robinson modeli**[21]

Zəncirlənmiş Leviafan ictimai proseslərə təsir gücünə görə despotik və zəif Leviafan arasında yerləşir. Amma Leviafanın növləri statik deyil, dinamik xarakter daşıyır. Zəncirlənmiş Leviafan tipli dövlət öz mövqeyini qorumaq və zamanla ayaqlaşmaq üçün daim çox böyük sürətlə qaçmalıdır. Əks halda o, ya despotik, ya da zəif Leviafana çevrilə bilər.

Acemoğlu və Robinsonun modelində dövlət və cəmiyyət qarşıdurma mövqeyində təsəvvür edilir. Lakin bəşər tarixində

---

[20] Global Competitiveness Report. How Countries are Preforming on the Road to Recovery / Prepered by Klaus Schwab and Saadia Zahidi – Special Edition, World Economic Forum, published 18 December 2020. Available at https://www.weforum.org/reports/the-global-competitiveness-report-2020

[21] Acemoglu, D. The narrow corridor: States, societies, and the fate of liberty / D.Acemoglu, J.A.Robinson – New York: Penguin Press, - 2019. – p. 41.

əməkdaşlıq, qarşılıqlı faydalara əsaslanan sivil münasibətlərin yaxşı nəticələri barədə nümunələr də az deyil. Qarşılıqlı inam və etimad tərəflər arasında münasibətlərin qarşıdurmadan əməkdaşlığa keçməsi üçün daha yaxşı fürsətlər yarada bilər. İnformasiya asimmetriyasını qarşılıqlı inamı azaldan, şəffaflığı isə onu dəstəkləyən qüvvə kimi təqdim edə bilərik. Bu baxımdan, dünyada və xüsusilə Azərbaycanda aparılan müasir rəqəmsallaşma proseslərinə dövlət və cəmiyyət arasında inam və etimadın güclənməsi və qorunması üçün yeni imkanların mənbəyi kimi baxa bilərik.

Tənzimləmə tədbirlərinin qiymətləndirilməsi üçün nəticəlilik göstəriciləri, nəticələrin monitorinqinin aparılması üçün həmin göstəricilər üzrə sistemli informasiya bazasının yaradılması, dəstəkləyici tədbirlərin bu göstəricilərlə və zaman hüdudları ilə əlaqələndirilməsi, qeyd edilən məsələlərin həllində rəqəmsal texnologiyaların tətbiqi tənzimləmə mexanizminin səmərəliliyinin artırılması üçün əsas istiqamətlər kimi qəbul edilə bilər.

Tənzimləmənin nəticələrinin qiymətləndirilməsi üçün emal sektorunda fəaliyyət göstərən və bu güzəştlərdən istifadə edən subyektlər üzrə aşağıdakı göstəricilərdən ibarət olan rəqəmsal informasiya bazasının yaradılmasına zərurət var. Bu bazanın fəaliyyət növləri və sahibkarlıq subyektlərinin ölçüsü (mikro, kiçik, orta) üzrə təsnifatlandırılması imkanları onun faydalılığını xeyli artıra bilər:

- güzəştlərdən istifadə edənlərin sayı və dinamikası;
- güzəştlər nəticəsində dövlət büdcəsinə ödənilməyən məbləğlər və onların dinamikası (vergi növləri üzrə);
- istehsal həcminin (natural və dəyər ifadəsində) və məhsuldarlığın dinamikası;
- kapitalın və investisiyaların məbləği, onların ümumi məhsulda payı və dinamikası;
- işçilərin sayı və dinamikası;
- ixracın məbləği və dinamikası;
- ixracın bazarlar (ölkələr) üzrə bölgüsü və şaxələnməsinin dinamikası;
- idxalı əvəz edən məhsullar üzrə istehsalın həcmi və dinamikası, həmin məhsullar üzrə idxalın həcmi və dinamikası.

## Nəticə

Azərbaycanın emal sənayesində resurslardan istifadə və ÜDM arasında əlaqələrin tədqiqi zamanı əmək resurslarının istehsal həcminə təsirinin kapitaldan daha güclü olduğu müəyyən edilmiş, innovasiya xərclərinin təsiri isə aşkarlanmamışdır.

Azərbaycanda dövlət xərcləri ilə emal sektorunun inkişafı arasında əlaqələrin tədqiqi göstərmişdir ki, dövlət investisiyalarının 1% artımı emal sektorunda adambaşına ÜDM-in 0.013%, dövlətin təhsil xərclərinin 1% artması isə emal sektorunda adambaşına ÜDM-in 0.175% artmasına gətirir.

Müəyyən edilmişdir ki, Azərbaycanın emal sektorunda adambaşına ÜDM, kapitalın ÜDM-ə nisbəti, emal sektoruna verilən yerli kreditlərin ÜDM-də payı, idxalın ÜDM-ə nisbəti kimi göstəricilər arasında əlaqələr nə uzun, nə də qısa müddətli dövrdə səbəb-nəticə xarakteri daşımır. Kreditlərin artımı isə qısamüddətli dövrdə idxalın artmasına səbəb olur. Bu nəticələr yerli emal sənayesinin inkişafında tənzimləyici maliyyə alətlərinin səmərəliliyinin azlığını təsdiqləyir və yaranmış vəziyyətdən çıxış yollarının tapılması üçün pul-kredit alətləri vasitəsilə tənzimləmənin də təkmilləşdirilməsinin zəruri olduğunu göstərir.

Azərbaycanda emal sektorunun tənzimlənməsi mexanizminin ən mühüm problemlərinə aşağıdakıları aid etmək olar:

1. Bazar şəraitində dövlət tənzimləməsi təcrübəsinin azlığı, dövlət orqanları, biznes və cəmiyyət arasında mövcud olan iqtisadi informasiya asimmetriyası, tənzimləyici qərarların qəbulunda biznesin real problemləri barədə məlumatların lazımi səviyyədə olmaması, nəticələrin monitorinqi üçün sistemli statistik bazanın qurulmaması və başqaları.

2. Emal sektorunun yerli sahibkarlar üçün nisbi cəlbediciliyinin az olması onların bu sahədə dəstəkləyici tədbirlərə tələbatını da azaldır. Deməli, tənzimləmə mexanizmi birinci addım olaraq, emal sektorunun ticarət, iaşə, təmir, tikinti, nəqliyyat, rabitə və maliyyə sektorları kimi sahələrə nisbətən daha cəlbedici olmasını təmin etməlidir.

3. Dövlət tənzimləməsinin nəticəli olması üçün tənzimləmənin keyfiyyətinin yüksəlməsinə ehtiyac var.

Ölkəmizin emal sənayesində inkişafın zəncirvari reaksiyasını işə salacaq tənzimləmə siyasətinin aparılması və daha yüksək texnoloji səviyyələrə keçidin təmin edilməsi üçün aşağıdakı təkliflər irəli sürülür:

1. Tənzimləyici qərarların qəbulunda emal sektorunda fəaliyyət təcrübəsinə malik olan peşəkar mütəxəssislərin və tədqiqatçı alimlərin iştirakının təmin olunması;

2. Emal sənayesində qlobal dəyər zənciri nəzərə alınmaqla müqayisəli üstünlüklərin aşkarlanması üçün tədqiqatların (bu sahələrin mütəxəssisləri, sahibkarları və elm adamlarının iştirakı ilə) aparılması;

3. Orta, peşə və ali təhsil sistemində keyfiyyət dəyişikliyi, əmək bazarının tələblərinə uyğunlaşa bilən çevik təhsil qurumlarının yaradılması istiqamətində fəaliyyətin gücləndirilməsi;

4. Əlçatan investisiya mənbələrinin formalaşması üçün maliyyə bazarlarının inkişaf etdirilməsi;

5. İqtisadi inkişafın "dövlət - özəl sektor - universitet" mexanizminin işə salınması üçün dəstəkləyici tədbirlərin həyata keçirilməsi;

6. Tənzimləyici orqanlar arasında, dövlət və özəl sektorlar arasında koordinasiyanın təmin edilməsi;

7. Ölkədə klasterləşmə və ümumiqtisadi inkişafa təkan vermək baxımından müqayisəli üstünlükləri olan prioritet fəaliyyət növlərinin (neft-kimyada, tikinti materialları istehsalında və b.) seçilməsi;

8. Həmin fəaliyyət növləri üçün bir-birilə uzlaşdırılmış dəstəkləyici tədbirlərin (dövlət investisiyaları, vergi, kredit, infrastruktur təminatı, elmi-tədqiqat, sınaq, laboratoriya və s.) tətbiq edilməsi;

9. Seçilmiş fəaliyyət növləri üçün daxili bazarın müvəqqəti qorunması (gömrük rüsumları və vergiləri, kvotalar və s.);

10. Dəstəkləyici tədbirlərin ölçülə biləcək fəaliyyət göstəricilərilə (məhsuldarlıq, istehsal həcmi, yeni iş yerləri, idxalı əvəzetmə, ixrac və başqa) və zamanla əlaqələndirilməsi;

11. Daxili bazarlarda seçilmiş fəaliyyət növləri üzrə yerli istehsalçılar arasında rəqabətin dəstəklənməsi;

12. Həmin fəaliyyət növlərinə ən yüksək səviyyədə dəstəyin verilməsi, sahibkarlarla dövlətin ən yüksək səviyyəsi arasında birbaşa əlaqə kanallarının yaradılması;

13. Aidiyyəti dövlət orqanlarının ən yüksək səviyyəli məmurlarının, sahibkarların, ali təhsil və elm müəssisələrinin rəhbərlərinin birgə iştirakı ilə mütəmadi görüşlərin keçirilməsi vasitəsilə informasiya asimmetriyasının aradan qaldırılması;

14. Tənzimləmənin nəticəlilik meyarlarının müəyyən edilməsi və nəticələrin monitorinqinin bu meyarlar əsasında aparılması;

15. Tənzimləmə qərarlarının qəbulunda və onun nəticələrinin qiymətləndirilməsində hesabatlılığın və tam şəffaflığın təmin edilməsi;

16. Dövlətin tənzimləmə alətlərinin daim təkmilləşdirilməsi və çevikliyin gücləndirilməsi.

Dövlət institutunun iqtisadi inkişafa təsiri baxımından keyfiyyəti həm cəmiyyətin keyfiyyətindən, həm dövlətlə cəmiyyətin gücü arasındakı mütənasiblikdən, həm də dövlət və cəmiyyət arasında qarşılıqlı inamın səviyyəsindən asılıdır. Dövlət və cəmiyyət arasında qarşılıqlı inamın güclənməsi iqtisadiyyatın tənzimlənməsində daha yaxşı nəticələrə gətirə bilər. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda apardığı mübarizə və 2020-ci ildə 44 günlük Vətən Müharibəsində əldə etdiyi möhtəşəm Zəfər bu fikri əsaslandırmaq üçün ən tutarlı nümunədir.

**Dissertasiya işinin əsas müddəaları, əldə edilən nəticə və təkliflər dərc olunmuş aşağıdakı elmi əsərlərdə əks olunmuşdur:**

1. Seyfullalı, R.İ. Azərbaycanın emal sənayesində iqtisadi artım mənbələrinin tədqiqi // - Bakı: AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası, Region və sahə iqtisadiyyatı, - 2019. №4, - s. 97-103.

2. Seyfullayev, I.Z., Seyfullali, R.I. Labor Efficiency and Economic Growth: Evidence from Azerbaijan // 4th İnternational Entrepreneurship, Employment and Career Congress, - Türkiyə: Muğla Sıtkı Koçman Üniversitesi, - 17-20 October, - 2019, - p. 203-210.

3. Seyfullalı, R.İ. İqtisadiyyatın dövlət tənzimlənməsi və iqtisadi artım: nəzəri baxışlar // "Regional inkişafın təmin olunmasında innovativ tendensiyalar: reallıqlar və müasir çağırışlar" mövzusunda Respublika səviyyəli elmi konfransın materialları, - Mingəçevir: Mingəçevir Dövlət Universiteti, - 11-12 dekabr, - 2020, - s. 384-387.

4. Seyfullalı, R.İ. Azərbaycanın emal sənayesinin dövlət tənzimlənməsi zərurətinin nəzəri əsaslandırması // III İqtisadiyyat və İdarəetmə Sahəsində Magistr və Doktorantların Beynəlxalq Elmi Konfransı, Nizami Gəncəvi və Davamlı İnkişaf, - GƏNCƏ: Azərbaycan Dövlət İqtisad Universiteti, - 4-7 iyun, - 2021, - s. 2267-2278.

5. Seyfullayev, İ.Z., Seyfullalı, R.İ. Dövlət institutu və iqtisadi inkişaf: nəzəri yanaşmalar // - Bakı: Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri, - 2021. İl: 9, Cild 9, №2, - s. 29-44.

6. Seyfullalı, R.İ. Milli iqtisadiyyatın emal yönümlü şaxələndirilməsi müasir çağırışlar kontekstində // IV İqtisadiyyat və İdarəetmə sahəsində Tədqiqatçıların Beynəlxalq Elmi Konfransı, ISCEMR, - Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti, - 23-26 iyun, - 2022, - s. 961-966.

7. Seyfullalı, R.İ. Azərbaycanda dövlətin emal sektorunun inkişafı siyasətinin təkmilləşdirilməsi istiqamətləri // - Bakı: AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası, Region və sahə iqtisadiyyatı, – 2022. №3, - s. 77-85.

8. Seyfullalı, R.İ Azərbaycanda büdcə xərclərinin emal sektorunun inkişafına təsiri // - Bakı: "İqtisadi islahatlar" elmi-analitik jurnal, - 2023. №1(6), - s. 55-69.

9. Seyfullayev, I.Z., Seyfullali, R.I. The impact of financial development on the manufacturing industry in resource-rich countries: Empirical evidence from Azerbaijan // - Journal of Eastern European and Central Asian Research (JEECAR), USA, Minneaapolis – 2023, 10(3), ISSN: 2328-8272, - p. 478-486.

10. Seyfullalı, R.İ. Tənzimləyici maliyyə alətlərinin emal sektorunda iqtisadi artıma təsiri: Azərbaycan nümunəsində // V İqtisadiyyat və İdarəetmə Sahəsində Tədqiqatçıların Beynəlxalq Elmi Konfransı, ISCEMR, - Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti, – 22-25 iyun, - 2023, - s. 611-622.

11. Məmmədli, M.M., Seyfullalı, R.İ. Cənubi Koreya və Sinqapurda iqtisadiyyatın dövlət tənzimlənməsinin tədqiqi // - Bakı: Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri, - 2024. İl:12, Cild: 12, №1, - s. 8-23.

Dissertasiyanın müdafiəsi "27" noyabr 2024-cü il tarixində saat $15^{00}$-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "25" oktyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.10.2024

Kağızın formatı: A5

Həcm: 37303

Tiraj: 100